# ADPU-nun Quba filialında Çingiz Qurbanovun 25 illik yubileyi qeyd olundu

**Noyabrın 25-də 2019-cu il tarixdə ADPU-nun Quba filialında Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun anadan olmasının 25 illik yubileyinə həsr olunmuş "Şəhidlər ölməz, Vətən bölünməz" mövzusunda anım mərasimi keçirilmişdir. Anım mərasimində filialın direktoru Yusif Alıyev, filialın müəllim və tələbələri, Müdafiə Nazirliyinin Nəzəri Psixoloji hazırlıq və ictimaiyyətlə əlaqədar idarəsinin rəis müavini polkovnik Abdulla Qurbani, istefada olan polis polkovniki, şair Qurban Məmmədov, Qusar rayon Həzrə kənd tam orta məktəbinin direktoru Natiq Novruzov, şair Ramiz Qusarşaylı, Çingiz Qurbanovun valideynləri və qohumları, KİV nümayəndələri iştirak etmişlər.**



Yığıncaq iştirakçıları ilk öncə akt zalında təşkil edilmiş "Çingiz Qurbanov - 25" adlı sərgi ilə tanış olmuşlar.

Azərbaycan Dövlət himni səsləndirildikdən sonra Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid omuş Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən ADPU-nun, Quba filialının direktoru fizika üzrə fəlsəfə doktoru, dosent Yusif Alıyev qeyd etdi ki, ta qədim zamanlardan vətəni sevən, onun hər qarışını göz bəbəyi kimi qoruyan oğul və qızlarımız saysız-hesabsız olmuşdur. Qusar rayonu neçə-neçə elm, mədəniyyət xadiminin, eləcə də sərkəndənin, generalın, diviziya komandirinin, Sovet İttifaqı Qəhrəmanının, Milli Qəhrəmanının beşiyidir. Belə ərənlərdən biri də ata-babaların qəhrəmanlıq ənənələri ruhunda tərbiyə almış, vətənin sadiq əskəri olmuş və Mübariz İbrahimovun qəhrəmanlığını təkrar etmiş igid əskərimiz Çingiz Qurbanovdur. Bütün şəhidlərimizin xatirəsini hörmətlə yad edir, onların müqəddəs ruhları qarşısında ehtiramla baş əyirik. Bircə təsəllimiz ondadır ki, bu şəhid oğulları vətən uğrunda, Azərbaycanın ərazi bütövlüyü uğrunda şirin canlarından keçərək şəhidlik zirvəsinə ucalmışlar. Çingiz nə ilk, nə də son şəhidimizdir. Şəhid varsa, torpaq da var, vətən də,şəhidlərə ölüm yoxdur Vətəndə... Biz Azərbaycanın qəhrəman oğulları ilə həmişə fəxr etmişik və onların xatirəsi daim qəlbimizdə yaşayacaqdır.

Müdafiə Nazirliyinin Nəzəri Psixoloji hazırlıq və ictimaiyyətlə əlaqələr idarəsinin rəis müavini, polkovnik, "Çingiz dastanı" kitabının müəllifi, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü Abdulla Qurbani çıxışında bildirib ki, Çingiz Qurbanov şəhadətə qovuşana qədər Qusar rayonun Həzrə kəndinin oğlu idi və yalnız burada tanınırdı. İndi isə o, bütün Azərbaycanın övladıdır. Hər yerdə şücaəti, igidliyi, cəsarəti, vətənə sədaqəti ilə tanınır. Şəhidlər müqəddəsdirlər. Çünki, torpaq uğrunda qan tökülməsə, o, vətən deyildir. Odur ki, Çingiz kimi oğullara şəhid demək olmaz. Onlar həmişə yaşayacaqlar. İndi güclü ordumuz var. Bu ordu cənab Prezidentimiz İlham Əliyevin uzaqgörən siyasəti sayəsində yaranıb və gündən - günə qüdrəti artır. İndi vəzifəmiz ökəmizdəki sabitliyi, əmin - amanlığı qorumaqda möhtəşəm Prezidentə kömək etməkdir. Ona görə ki, sabitlik, əmin - amanlıq olmayan ölkədə inkişaf olmaz.

Daha sonra istefada olan polis polkovniki, şair Qurban Məmmədov, Qusar rayon Həzrə kənd tam orta məktəbinin direktoru Natiq Novruzov, şair Ramiz Qusarşaylı, filialın "Təbiət fənləri və onun tədrisi metodikası" kafedrasının baş müəllimi Şixəmməd Seyidməmmədov və başqaları şəhid Çingiz Qurbanovun göstərdiyi qəhrəmanlıqdan, ordumuzun cəbhədəki uğurlarından söz açıblar.

Qeyd edilib ki, Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçən bütün şəhidlərimiz kimi Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun da əziz xatirəsi daim qəlbimizdə yaşayacaq.

Sonra Çingiz Qurbanova həsr edilmiş ədəbi-bədii kompazisiya göstərilib və slayd təqdim edilib.



Şəhid, Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun atası Salman Qurbanov anım gününə görə ADPU-nun Quba filialının rəhbərliyinə, tədbir iştirakçılarına, filialın müəllim və tələbə kollektivlərinə minnətdarlığını bildirdi.

**Tədbirin sonunda Milli Qəhrəman Çingiz Qurbanovun həyat və döyüş yolundan bəhs edilən slayd nümayiş etdirildi və xatirə şəkillər çəkdirildi.**

**Şixəmməd Seyidməmmədov,**
**AYB-nin üzvi,**
**ADPU-nun Quba filialının "Təbiət fənləri və onun tədrisi kafedrası"nın baş müəllimi**